| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin kodu, adı və kreditlərin sayı** | **THM 102 Turizmə giriş-3 KU/6 AKTS** |
| | **Departament** | İqtisadiyyat və Menecment |
| | **Proqram** | Bakalavriat |
| | **Semestr** | 2025/2026-cı tədris ilinin payız semestri |
| | **Müəllim** | Ülkər İbadlı |
| | **E-mail** | ulkeribadli1@gmail.com |
| | **Otaq/saat** | |
| **Ön şərtlər** | Yox | |
| **Tədris dili** | Azərbaycan | |
| **Məcburi/seçmə** | Məcburi | |
| **Dərsliklər və kurs materialları** | **Zəruri dərs vəsaitləri:**<br>• Page, S. J. (2025). *Tourism management* (7th ed.). Elsevier Ltd..<br>• Cook, R. A., Hsu, C. H., & Taylor, L. L. (2021). *Tourism: The business of hospitality and travel* (6th ed.). New York: Pearson.<br>**Əlavə dərs vəsaitləri:**<br>• Turizmin əsasları: dərslik / müəllif kollektivi; dosent B.Ə.Bilalov və dosent Ç.G.Gülalıyevin redaktəsi ilə. Bakı, " QHT Nəşriyyatı", 2015. 496 s. | |
| **Kursun təsviri** | Bu kurs tələbələrə turizmin əsas anlayışları, tarixi inkişaf mərhələləri və təsnifatı haqqında ümumi bilik verir. Dərs çərçivəsində turizm hadisəsi, turizmin sosial-iqtisadi əhəmiyyəti, turizm bazarı, tələb və təklif, turizm sənayesi, turizm məhsulu və xidmətlərinin təqdimatı, beynəlxalq turizm təşkilatları, Azərbaycanın turizm bölgələri və turizm sektörunda yeni tendensiyalar müzakirə olunur. Əlavə olaraq, turizm və ətraf mühitin qarşılıqlı təsiri, dayanıqlı inkişaf prinsiplərinə dair məsələlər də əhatə edilir. | |
| **Kursun məqsədi** | "Turizmə giriş" dərsinin məqsədi tələbələrə turizmin nəzəri əsasları, inkişaf dinamikası və onun müasir dövrdə sosial-iqtisadi sistemlərdə tutduğu yer haqqında geniş biliklər verməkdir. Dərs çərçivəsində tələbələr turizm anlayışının mahiyyətini, onun tarixi inkişaf mərhələlərini, turizmin müxtəlif növlərini, formalarını və tiplərini öyrənməklə yanaşı, turist tipologiyalarının təhlili bacarığını da əldə edəcəklər. Fənnin mühüm istiqamətlərindən biri turizmin iqtisadiyyat, cəmiyyət və mədəniyyət üzərindəki çoxşaxəli təsirlərini araşdırmaq, turizm ehtiyatlarının və resurslarının qiymətləndirilməsi prinsiplərini mənimsətməkdir. Tələbələr turizm məhsulunun strukturu, xidmətlərin təşkili və təqdimatı, turizmdə tələb və təklifin formalaşma mexanizmləri, turizm bazarının quruluşu və fəaliyyət prinsipləri barədə sistemli biliklər əldə edəcəklər. Bundan əlavə, turizm sənayesinin əsas subyektləri olan turoperator və turagentlərin fəaliyyət xüsusiyyətləri, turizm marşrutlarının növləri və onların planlaşdırılması mövzuları da tədris olunacaqdır. Dərs beynəlxalq ölçülərdə turizm fəaliyyətinin xüsusiyyətlərinə də diqqət yönəldir. Bu kontekstdə tələbələr beynəlxalq turizm təşkilatlarının funksiyaları, Azərbaycan turizm bazarının strukturu və spesifik xüsusiyyətləri, həmçinin Azərbaycanın turizm bölgələrinin potensialı ilə yaxından tanış olacaqlar. Eyni zamanda, müasir turizm fəaliyyətində ekoloji balansın qorunması, dayanıqlı inkişaf prinsiplərinin tətbiqi və turizm sektorunda yeni tendensiyaların öyrənilməsi dərsin mühüm məqsədlərindən biridir. Nəticə etibarilə tələbələr turizmin nəzəri əsaslarını mənimsəməklə yanaşı, praktiki tətbiq sahələrinə dair biliklər qazanacaq və turizmin gələcək inkişaf perspektivlərini qiymətləndirmək üçün zəruri bacarıq və kompetensiyalara yiyələnəcəklər. | |
| **Tədris öyrənmə nəticələri** | Tədris müddətinin sonunda tələbələr:<br>• Turizmin əsas anlayışlarını, terminlərini və konseptual çərçivəsini izah edə bilir.<br>• Turizmin tarixi inkişafını və müxtəlif növ və formalarını müqayisə edir.<br>• Turizmin sosial və iqtisadi əhəmiyyətini dəyərləndirir.<br>• Turizm bazarının strukturu, tələb və təklif qanunauyğunluqlarını təhlil edə bilir. | |

<table>
<tr><td></td><td colspan="3">

- Turizm sənayesi, turizm məhsulu və xidmət təqdimatı mexanizmlərini izah edir.
- Turizm və ətraf mühit arasındakı əlaqələri, dayanıqlı inkişafın rolunu izah edir.
- Turist tipologiyaları və turizm marşrutlarının xüsusiyyətlərini fərqləndirir.
- Beynəlxalq turizm təşkilatlarının funksiyalarını və əhəmiyyətini şərh edə bilir.
- Azərbaycanın turizm bazarının strukturunu və regional turizm potensialını təhlil edə bilir.
- Turizmdə yeni tendensiyalar və gələcək inkişaf perspektivlərini qiymətləndirə bilir.

</td></tr>
<tr><td rowspan="4">Tədris metodları</td><td colspan="2">Quiz</td><td>x</td></tr>
<tr><td colspan="2">Qrup təcrübəsi/təqdimat</td><td>x</td></tr>
<tr><td colspan="2">Mühazirə</td><td>x</td></tr>
<tr><td colspan="2">Seminar / Keys təhlillər</td><td>x</td></tr>
<tr><td rowspan="7">Qiymətləndirmə</td><td>Metodlar</td><td>Tarix/son tarix</td><td>Faiz (%)</td></tr>
<tr><td>Aralıq imtahan</td><td>Elan ediləcək</td><td>30</td></tr>
<tr><td>Dərsə davamiyyət</td><td></td><td>5</td></tr>
<tr><td>Dərsdə aktivlik</td><td></td><td>5</td></tr>
<tr><td>Quiz</td><td></td><td>10</td></tr>
<tr><td>Qrup təqdimatı</td><td></td><td>10</td></tr>
<tr><td>Final imtahan</td><td>Elan ediləcək</td><td>40</td></tr>
<tr><td>Qaydalar</td><td colspan="3">Davamiyyət: 25% iştirak həddini aşan tələbələrə final imtahanında iştirak etməyə icazə verilməyəcəkdir. Dərsə 15 dəqiqə gec gələn tələbələrə qayıb yazılacaq və dərsdə iştirakına icazə veriləcək.<br>Aktivlik: Tələbənin müzakirələrdə iştirakına görə, eyni zamanda verilən tapşırıqlara hazırlıqlı gəldiklərinə əsasən qiymətləndirmə aparılacaq.<br>Quiz: Tələbələrin əhatə olunan mövzular baxımından biliklərini qiymətləndirmək üçün 2 (iki) yazılı quiz keçiriləcəkdir. Quizlərin keçirilməsinin əsas məqsədi tələbələrin mühazirələrə diqqətini cəlb etmək və bir neçə növ nəzəri və praktiki sualların həllində tələbələrin təcrübəsini təmin etməkdir.<br>Qrup təqdimatı: Tələbələr 2-4 nəfərlik qruplara bölüşdürülür və onlara tapşırıqlar verilir. Tapşırıqların yerinə yetirilməsi zamanı çap materiallarından, elektron mənbələrindən istifadə etmək imkanı olacaq. Əsas məqsəd – verilmiş tapşırığa komanda halında düzgün cavabın tapılmasıdır; komandada işləmək bacarığının öyrənilməsidir. Qrup təqdimatlarının təqdim edilməsinə görə 10 bal tədrisin son həftəsində, final imtahanından əvvəl yazılacaqdır.<br>Plagiarizm: başqa şəxsin, ideya və fikirlərini bu və ya başqa formada özününkü kimi qələmə verilməsi və çatdırılmasıdır. Plaqiarizm birmənalı olaraq qadağandır və Universitet üzrə qəbul olunmuş qaydalar əsasında tənzimlənir.</td></tr>
</table>

**Cədvəl**

| Həftə | Tarix | Mövzu | Mənbə |
|---|---|---|---|
| 1 | | Turizmə Ümumi Baxış: Əsas Anlayışlar<br>Turizm Hadisəsi, Əhəmiyyəti və İnkişaf Tarixi | Mühazirə materialları<br>UNWTO materialları |
| 2 | | Turizmin Növləri, Formaları, Tiplərinin Təsnifatı<br>Turist Tipologiyaları | Mühazirə materialları |
| 3 | | Turizmin Sosial-İqtisadi Əhəmiyyəti | Mühazirə materialları |
| 4 | | Turizm Ehtiyatları | Mühazirə materialları |
| 5 | | Turizm Məhsulu<br>Turizmdə Xidmətin Təqdimatı | Mühazirə materialları |
| 6 | | Turizmdə Tələb və Təklif<br>Turizm Bazarı Anlayışı, Strukturu | Mühazirə materialları |
| 7 | | Turizm Sənayesi<br>**Quiz 1** | Mühazirə materialları |

| | | | |
|---|---|---|---|
| 8 | | Turoperator və Turagent Faaliyətinin Xüsusiyyətləri<br>Turizm Marşrutları və Onların Tipləri | Mühazirə materialları |
| 9 | | **Aralıq imtahanı** | |
| 10 | | Turizm regionları | Mühazirə materialları |
| 11 | | Beynəlxalq Turizm Təşkilatları | Mühazirə materialları<br>UNWTO materialları |
| 12 | | Azərbaycanda Turizm Bazarının Strukturu və Xüsusiyyətləri | Mühazirə materialları<br>www.tourism.gov.az |
| 13 | | Azərbaycanın Turizm Bölgələri<br>**Quiz 2** | Mühazirə materialları<br>www.tourism.gov.az |
| 14 | | Turizmdə Ətraf-Mühit və Dayanıqlı İnkişaf | Cook, R. A., Hsu, C. H., & Taylor, L. L. XII-XIII Fəsil |
| 15 | | Turizmin Gələcəyi və Yeni Tendensiyalar | Cook, R. A., Hsu, C. H., & Taylor, L. L., XIV Fəsil |
| | | **Final imtahanı** | |